Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

# “Mədəni inkişaf üçün birinci bilik səviyyəmiz olmalıdır...”

## Ədalət Hacıyev: “Başqasını tənqid etməkdən asan bir şey yoxdur, birinci tənqidi özündən başlamalısan”

**Müsahibimiz Akademik Rus Dram Teatrının direktoru Ədalət Hacıyevdir. Onun müsahibəmizdə həyat və yaradıcılığı ilə bağlı söhbətləşdik.**

**(Əvvəli ötən sayımızda)**

***- Ədalət müəllim, incəsənətimizdə, mədəniyyətimizdə nələrin dəyişməsini istərdiniz?***

- Mədəniyyətimizdə, incəsənətimizdə kim işləyirsə, kim özünü mədəniyyətdə hiss edirsə işinə olan münasibəti əla olmalıdır. İşlərində tələbkar olsunlar. Məşhur sovet filmi var: "Dojivem do ponodelğnika". Filmdə müəllimlərin həyatından danışılır. Bir müəllim o biri müəllimə deyir ki, gərək sən işində bir səhv buraxmayasan, çünki bunun nəticəsi çox ağır olur, sənin şagirdlərin sabah gedib başqa işlərlə məşğul olacaq.

Yəni bunların hamısı zəncirvari məsələdir. Mədəniyyətdə də gərək səhv olmasın, hamı öz işini sevsin. Mən direktor olduğumdan, teatrda qapıçıdan tutmuş, aktyora kimi - hər biriylə danışıram. İşə götürəndə birinci soruşuram ki, sənin teatra, mədəniyyətə, incəsənətə münasibətin necədir? Bir kitab oxusanmı? Bilirsən, dram nədir? Çox vaxt mənə deyirlər ki, əşşi, mən qapıçı işləyirəm. Deyirəm, yox, sən başqa yerdə qapıçı işləyə bilərsən... Bura xəstəxana olsaydı, deyə bilərdim ki, iynə vura bilirsən? O başqa şeydir. Amma sən teatra gəlmisənsə ilk növbədə səhnəyə çıxan adamlara, bu işi görən insanlara, mədəniyyətimizə münasibətin olmalıdır.

Sizin sualınıza belə cavab verim ki, hər birimiz ilk növbədə özümüzə, öz işlərimizə cavabdeh olmalıyıq. Başqasını tənqid etməkdən asan bir şey yoxdur. Birinci tənqidi özündən başlamalısan. Hər birimiz özümüzə, öz işimizə düzgün yanaşmalıyıq. Öz işimizə düzgün yanaşsaq, inanın, gördüyümüz işlərin nəticəsi çox gözəl, çox yaxşı olacaq.

***- Sizcə, bir xalqın mədəni inkişafı üçün ilk növbədə nə etmək lazımdır?***

- Mədəni inkişaf üçün birinci bilik səviyyəmiz olmalıdır, bunu hamımız çox yaxşı bilirik. “Nəsimi” filmində görmüsünz də, Nəsimi deyir: "Bir var aqil adam, bir də var cahil adam" Nəsiminin o kəlamı hamımıza aiddir. Aqil adam hər bir şeyə qadirdir, cahil adam isə öz cahilliyi ilə özü kimiləri “cahillik xəstəliyi"nə yoluxduracaq. Cahillik həm də bir növ xəstəlik kimidir. Cəmiyyətimizdə nə qədər savadlı adam çox olsa, cəmiyyət o zaman udar. Cahil adamlar bizi geri çəkirlər. Savadın varsa, deməli, mədəniyyətin də var, mədəniyyətə qiymət verirsən. Çünki sən savadlısan, şairlərinə, ədiblərinə hörmət bəsləyirsən. Yəni başa düşməlisən ki, sənət nədir. Bu, çox vacibdir.



“Aqil adam hər bir şeyə qadirdir, cahil adam isə özü kimilərini “cahillik xəstəliyi”nə yoluxduracaq...”

***- Həyat kiminə yaşamağı, kiminə çətinliyi, kiminə dözümlü olmağı öyrətdi. Bəs, həyat sizə nələri öyrətdi?***

- Orda dediklərinizin hamısı var. Dediklərinizi hamımız həyatımızda keçmişik. Heç kim deyə bilməz ki, həyat, ömür yolum düz olub. Enişsiz-yoxuşsuz həyat, ömür yolu yoxdur. Bir ildə həm atamı, həm də anamı itirdim. Yəni bizim özümüzün də həyatımızda görün nə qədər enişli-yoxuşlu sistem dəyişib. İki Qarabağ müharibəsi görmüşük. Otuz il yerişimiz başqa idi, indi tamam başqadır. Artıq qürurla yeriyirik, dünyanın gözünə düz baxa bilirik. Belə deyərdim ki, onurğa sütunumuz dəyişib. Ona görə yox ki, mən dövlət teatrında işləyirəm. Bir balaca idarəyə rəhbərlik etməyin, insanlarla dil tapmağın özü də çox çətindir. Amma bir dövləti idarə etmək daha çətindir, hətta sənin qonşuların da istəməz ki, başını qaldırasan...

Biz hamıyla görüşürük. Mən maşını yudurduram, gedirəm təkərləri doldururam. Təmiz hava almaq üçün getdim bir çörək aldım. Orda işləyən adam üçün nə fərqi var ki, kimin vəzifəsi nədir. Elə adamlardan bu sözləri eşidəndə başa düşürsən ki, bu insanlar həyatı nə qədər düzgün başa düşür, qiymət verir, münasibət bildirir. Yəni o, təkərə hava doldurur, amma danışanda savadına, biliyinə, dünya görüşünə heyran olmaya bilmirsən. Deyir ki, Azərbaycan başqadır, biz başqayıq. El içində işlədilən bir məsəl var: “Qabaqda gedənin öz yiyəsi var”. Evin öz yol göstərəni var. Bizim xalq üçün böyük şərtdir. O evin böyüyü, o evi düzgün yolla aparanı var. Ona görə də caamat rahat yaşayır. Belə şeylər çox vacibdir, bunların hamısını biz görmüşük. Qarabağ hadisələri olanda mənim 10 yaşım olmayıb axı, 28, 29, 30 yaşım var idi. Burda 20 Yanvar hadisələrini görmüşəm. Bilə-bilə yalandan bizim adımızdan hətta erməniləri də meydana atırdılar. Baxıb görürdüm, azərbaycanlı deyil, yalandan deyirdilər ki, gedək İrəvana bomba ataq. Hər bir şeyi biz gözümüzlə görmüşük. Tamaşa vaxtı güllə atırdılar. Hərcmərclik idi. Biz bu bütün olayları bilmirdik. Bir var sən səhər yuxudan durub işə gedirsən, heç kəs sənə qarşı özbaşınalıq eləmir, qayda-qanun varg Bunları görməyən adam düzgün qiymət vermir. Ölkəmizdə nə qədər çətinliklər olub, biz bunları görmüşük. Biz bu mərhələləri keçmişik, heç nəyin üstündə atışmalar, nalayiq hərəkətlərin hamısını görmüşük. Torpaqlar da əldən getmişdi. Böyük, humanist insan, dövlətimizin başçısının düzgün siyasəti nəticəsində artıq Qarabağ bizimdir. Hamımızın Prezidentimizə münasibəti yekdildir. Hamı Prezidentin başına and içir. Çünki gördülər ki, çətin vəziyyətdə azərbaycanlıları ayağa qaldırdı. Hər şey çətin idi, pandemiya bir yandan, caamat bir yandan xəstə... Orda qırğın, burda qırğın, hər yer, aləm bir-birinə dəymişdi. Belə bir şey yox idi ki, hə, sakit dur, torpaqları al. Bunların hamısı böyük şərtdir. İndi xalqımız çox gözəl başa düşür ki, Prezidentimiz nə qədər dahi işlər görür. Bugünki əminamanlığa, rahatlığa görə də cənab Ali Baş komandanımıza, Müzəffər Ordumuza minnətdarıq. Allah şəhidlərimizə rəhmət eləsin! Qazilərimizin canı sağ olsun!

***- Maraqlıdır, Tanrının Sizə bəxş etdiklərindən hansını özünüzə hədiyyə sayırsınız?***

- Hədiyyə odur ki, razılıq söhbəti olanda özümdən narazı olsam da bir bu şeydən razı qalıram ki, çıxırsan bayıra, ölkənin gözəlliyini görürsən, şəhərin havasını udursan. Nə yaxşı ki, Bakını mənzərələrini, dənizini görürsən. Öz caamatını, xalqını üzügülər, şən görürsən. Sənin ailən, şəhərin, dövlətin yaxşı olanda sən razı olursan. Mən bu razılığı xalqımızın da gözlərindən sezirəm.

Özün özündən razı ola bilməzsən. Mənim işim belədir ki, qonaqlıqaralıdır. Beşinci, altıncı, bazar günləri tamaşaçı mənim üçün qonaqdır. Mən tamaşaçıların teatra münasibətini görürəm. Onlar hansı əhval-ruhiyyədədirlər, onları görürəm. Həm də bizim teatra rusdilli turistlər gəlirlər. Biz azərbaycanlıyıq, Azərbaycan bizim dövlətimizdir. Amma bizimkilər tamaşalarımıza baxmağa gələndə mənə çox xoş gəlsə də, özgə gələndə on qat xoşuma gəlir. Xarici vətəndaş gəlib sənin şəhərinə, mədəniyyətinə, caamatına qiymət verirsə, bu tamam başqa şeydir. Mənim heç yadımdan çıxmaz, Rusiyadan bir rejissor gəlmişdi. İki ay burda qaldı. Biz onun üçün ev tutmuşduq. Elə oldu ki, həmin vaxt Bulvarda bayram şənlikləri oldu, bir milyon adam var idi. Sabahısı günü mənə dedi ki, orada bir adam görmədim ki, bir-birinin ayağını tapdalasın, gecələr bir sərxoş adam görmədim. Özü Moskvada rejissordur. Deyirdi ki, bizdə bayramda hamı sərxoş vəziyyətdə olur, biz bunları görməmişik. Bizdə isə bayramlarda Bulvarda nə qədər adam olur, biri kiminsə ayağını tapdalaya və ya itələyə, belə şey olmur. Bir-birinin yanında əyləşirlər, uşaqlara, qadınlara, yol verirlər. Bu mədəniyyətdir də. Xarici vətəndaşlar bunu görəndə, gedib bizim haqda danışanda biz öz-özümüzə deyirik ki, doğrudanmı, bizdə belə şeylər olur?! Bizim görmədiyimizi də başqaları təmiz gözlə görə bilir.

Əlbəttə, bu da Tanrının mənim üçün böyük hədiyyəsi, mükafatı, bəxşişi sayılır.

***- Sevimli sənətkarımız Brilliant xanımın həyat yoldaşısınız. Ulduz bir müğənninin həyat yoldaşı olmaq çətin olmayıb?***

- Əlbəttə, çətindir. Əvvəlcə səsi gəldi, sonra da özü. Mən Brilliantın əvvəlcə səsini eşitmişdim. Onunla tanış olanda da telefonla danışmışdım. Ona görə də Anarın pyesi çox xoşuma gəldi. O telefonla yığanda “88 45” əvəzinə “46 “yığmışdı. Bizdə “46” idi. Onda mobil telefonlar yox idi, ev telefonları vardı. Mən də gördüm bir qız zəng vurub, yalandan dedim ki, mənəm. Ələkbər adında bir adamı çağırırdı. Dedim ki, Ələkbər indi gələcək. Sən demə, Ələkbər bunların qohumudur. Qohumu ilə də danışmalıymış. Təxminən 10 dəqiqə, 15 dəqiqə danışdıq. Mən əvvəl adımı demədim, sonra tanış olduq. Mənə elə gəlir ki, bu bir qismətdir. Bilərəkdən olmayıb. Qismət də çox maraqlı hadisə kimi oldu. Yadımıza düşəndə çox gülürük. O vaxt bəlkə telefona cavab verməzdim, heç mənim vaxtım olmazdı. Nədənsə, vaxtım da var idi, danışa da bildim. Hardansa o sözləri tapdım. Nədənsə, o, telefonu atmadı(Gülür). Maraqlı bir şey alındı, həyat yollarımız birləşdi.

***- Həyatda nail olduqlarınızı asanlıqla, yoxsa böyük mücadilə nəticəsində əldə edə bilmisiniz?***

- Yenə də deyirəm, həyatda elə bir şey olmur, nələrə nail oluruqsa mücadilə, mübarizə nəticəsində nail oluruq. Sən artıq bilməlisən ki, hansı işin qulpundan yapışa bilərsən və bu işin uğurunda mübarizə aparsan o arzuna çatmış olacaqsan. Mən də istəyərdim ki, kosmonavt olum. Amma başa düşməliydim ki, məndən kosmonavt olmaz.

Burda belə şeylər var ki, yenə də mən özümdən deyirəm, nəyə qadirsən, nəyi bacarırsan, nə sənin imkan dairəndədir, çalışmalısan onunla məşğul olasan. Onda da nəsə bir nəticə alınır. Bilirsən ki, bu sənlik deyil, gedib onunla niyə mübarizə aparasan?!

***- Artıq teatrda yeni mövsüm başlayıb. Rəhbəri olduğunuz Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında hansı yenilikləriniz olacaq?***

- Siz indi məşqi gördünüz. Anarın əsəri səhnəyə qoyulur. Mədəniyyət Nazirliyinin dəstəyi ilə rejissor Peterburqdan gəlib, həm də rəssamdır. Allah qoysa yaxın günlərdə premyeramız olacaq. Həm də ki, bizim teatrın baş rejissoru Aleksandr Şarovskinin noyabr ayında yubileyi olacaq, yeni tamaşanı ona həsr edirik. Teatrımızda hər ay oynanılacaq tamaşalar, premyeralar ilin axırına kimi təsdiq olunub. Elə tamaşalar var ki, öz vaxtını gözləyir. Elə tamaşalar var 3-4 ildir oynayırıq. Elə tamaşa var ki, 15 ildir oynayırıq. Elə əsərlər var, düşünürsən ki, yaxşı əsərdi, amma tamaşaçı qəbul etməyəndən sonra 1-2 ildən sonra həmin tamaşa oynanılmır. Bəziləri tamaşaçının xoşuna gəlir, bəziləri xoşuna gəlmir. Əlbəttə, hansı tamaşaları oynamağın mənası yoxdur, onları yeni tamaşalarla əvəz edirik. Hər sezon ən azı 5, 6 tamaşı oynayırıq.

Biz həm də Maqsud İbrahimbəyovun əsəri üzərində tamaşa hazırladıq və həmin tamaşa oynanıldı. Onun premyerası oldu. Elçinin “Stalin” əsəri üçün hazırlanmış tamaşanı da çox uğurla işlədik. İndi, inşallah, 2023-cü il üçün hazırlıqlar görürük. Hidayət Orucovun çox gözəl bir əsəri var, onu danışmışıq. Şarovski hazırlamalıdır. Elmira Axundova tərəfindən rus dilinə tərcümə olunub. O tamaşanı 2023-cü ildə səhnələşdirəcəyik. Ulu öndərimizə, Ümummilli liderimizə həsr olunub. Bildiyiniz kimi, cənab Prezidentimiz İlham Əliyev 2023-cü ili “Heydər Əliyev ili” elan edib. Ulu öndərin 100 illiyi də yaxınlaşır. Şarovski də o əsər üzərində işləyir. Biz bundan kənar qala bilmərik. Bu bizim münasibətimizdir, bunu mütləq edəcəyik. Həm aktyorlar bunu istəyir, həm də rejissor. Biz hamımız bunu etməliyik.

**Söhbətləşdi: Fuad BİLƏSUVARLI**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur